**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI**

**QƏRAR**

**№ SQ-02/2025-2**

**Naxçıvan şəhəri** **11 dekabr 2025-ci il**

**Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Abbasov Əli Feyzulla oğlunun mandatından məhrum edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavininin 10 dekabr 2025-ci il tarixli, 2-1-2/2-474/2025 nömrəli məktubu ilə daxil olmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyasının 09 dekabr 2025-ci il tarixli rəyi və ona əlavə edilmiş sənədlər baxılması və müvafiq qərar qəbul edilməsi məqsədi ilə Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən (bundan sonra - Mərkəzi Seçki Komissiyası) araşdırılmışdır.

Araşdırma zamanı məlum olmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 27.1-ci maddəsinə əsasən Ali Məclisin sədrinin birinci müavini Ali Məclisin deputatı Abbasov Əli Feyzulla oğlu barəsində Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 19-cu maddəsinin I hissəsinin 7-ci bəndində göstərilən əsas olduğundan məsələni Ali Məclisin İntizam komissiyasına göndərmişdir. İntizam komissiyası daxil olmuş müraciətə Ali Məclisin deputatı Abbasov Əli Feyzulla oğlunun iştirakı ilə baxıb müəyyən etmişdir ki, o, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında” Naxçıvan Muxtar Respublikası Qanunu ilə müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozmuşdur.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 19-cu maddəsinin I hissəsinin 7-ci bəndində göstərilən əsas olduqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatının mandatından məhrum edilməsi haqqında qərar “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 103.3-cü maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən qəbul edilir.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 104.1-2-ci maddəsində qeyd edilir ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 19-cu maddəsinin I hissəsinin 6-cı və 7-ci bəndlərində göstərilən hallarla əlaqədar Mərkəzi Seçki Komissiyasına Ali Məclisin rəsmi məlumatı daxil olduqdan sonra 15 gündən gec olmayaraq Mərkəzi Seçki Komissiyası həmin rəsmi məlumatı müzakirə edərək müvafiq qərar qəbul edir.

Ali Məclisin deputatı Abbasov Əli Feyzulla oğlunun mandatından məhrum edilməsi barədə İntizam komissiyasının rəyi Mərkəzi Seçki Komissiyası tərəfindən qanunvericiliyin tələblərinə uyğun olaraq müəyyən edilmiş qaydada və müddətdə araşdırılmışdır. İntizam komissiyasının rəyi və ona əlavə edilmiş digər sənədlərdə deputat Əli Abbasovun "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tələblərini kobud surətdə pozduğu sübuta yetirilərək onun mandatından məhrum edilməsi üçün hüquqi əsasların olduğu müəyyən edilmişdir.

Mərkəzi Seçki Komissiyası Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 19-cu maddəsinin I hissəsinin 7-ci bəndinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.13-cü, 23.3-cü, 23.4-cü, 103.3-cü, 104.1-2-ci və 104.2-ci maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r:**

1. 4 saylı Yengicə Seçki Dairəsindən yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmiş Abbasov Əli Feyzulla oğlu deputat mandatından məhrum edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.
3. Mərkəzi Seçki Komissiyasının bu qərarından rəsmi dərc edildiyi gündən 10 gün müddətində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə şikayət verilə bilər.

**Sədr:** **Çingiz Həsənli**

**Katib:** **Orxan Bağırov**